İPƏK YOLU, No.2, 2024, səh.21-26
https://doi.org/10.30546/1810-911X.2024.2.03

# MALİYYƏ MÜNASİBƏTLƏRİ VƏ İQTİSADİ İNKİŞAFIN MALİYYƏ TƏMİNATI

**Nurlana Allahmanlı**

Akademia WSB, Polşa
e-mail: m.allahmanli@mail.ru

**Xülasə.** Dövlət özünün fəaliyyəti və iqtisadi, siyasi, sosial, mədəni problemlərin uğurlu həlli üçün iqtisadi inkişafın maliyyə təminatını formalaşdırmalıdır. Maliyyə vəsaitinin səfərbərliyə alınması və istifadəsi büdcə vəsaitləri hesabına reallaşır. Bu isə özlüyündə dövlətlə hüquqi və fiziki şəxslər arasında münasibətlər sisteminin qurulması və qanuniləşməsidir.

**Açar sözlər:** Büdcə, vergi, pul, büdcə siyasəti.

**FINANCIAL RELATIONS AND FINANCING OF ECONOMIC DEVELOPMENT**

**Nurlana Allahmanli**
*Akademia WSB, Poland*

**Abstract.** The state should form financial support for economic development for its activity and successful solution of economic, political, social and cultural problems. Mobilization and use of financial resources is realized at the expense of budget resources. This in itself is the establishment and legalization of the system of relations between the state and legal and natural persons.
**Keywords:** Budget, tax, money, budget policy.

**ФИНАНСОВЫЕ ОТНОШЕНИЯ И ФИНАНСИРОВАНИЕ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ**

**Нурлана Аллахманлы**
*Академия WSB, Польша*

**Резюме.** Государство должно формировать финансовую поддержку развития экономики для своей деятельности и успешного решения экономических, политических, социальных и культурных проблем. Мобилизация и использование финансовых ресурсов осуществляется за счет бюджетных средств. Это само по себе является установлением и легализацией системы отношений государства с юридическими и физическими лицами.
**Ключевые слова:** Бюджет, налоги, деньги, бюджетная политика.

## 1. Giriş

**Dövlətin büdcə siyasəti.** Milli iqtisadiyyatın sabit inkişaf etdirilməsi büdcə siyasətinin düzgün qurulmasına, gəlir və çıxarların maksimum şəkildə nəzərə alınmasına bağlanır. Burada əks arqumentlə yanaşmalar, daha doğrusu, səmərəliliyin azaldılması və aradan qaldırılmasını da diqqət önünə gətirir. Milli iqtisadiyyatın sabit inkişafı maliyyə siyasətinin düzgün və planlı şəkildə reallaşdırılmasında müstəsna olandır. Reallığın nəzərə alınması, xərclərin gəlirlər müqabilində düzgün qurulması bütün parametrləri ilə pul və büdcədə işlərin müsbət, düşünülmüş tənzimlənməsini əsas edir. Məsələn, iqtisadiyyatda uzunmüddətli işsizliyin baş verməsi halları bəzən qaçılmaz olur. Belə vəziyyətlərdə hökumət büdcəni tarazlaşdırmaq üçün vergi dərəcəsinin qaldırılması, dövlət xərclərinin azaldılması (ixtisar olunma), bir qədər dəqiq desək, bir-biri ilə əlaqələndirmələr hesabına baş verə bilər.

İkinci konsepsiya büdcənin iqtisadi proseslərinin tsiklinə hesablanmasıdır. Burada hər il büdcə formalaşdırılması prinsip olaraq əsas götürülmür. Belə olan vəziyyətdə istehsalda

azalmanın qarşısını almaq üçün hökumət vergini azaltmaqla nizamlanmanı aparır. Dövlət xərcləri artırılır və tələbatın çoxalmasına düşünülmüş şəkildə şərait yaradılır. Belə bir vəziyyətdə isə dövlət borcu və büdcə kəsri yüksəliş dövründə çox da olmayan qalıqla örtülür. Azərbaycan dövlətinin maliyyə planı mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yaradılması və istifadəsi ilə reallaşır.

İstehsalın uzunmüddətli azalma və yüksəliş dövrlərinin təhlili və onun nizamlanması, vəziyyətə uyğun dövlət xərclərinin, tədbirlər planının hazırlanmasını zəruri edir. Büdcədənkənar məqsədli maliyyə fondlarının işi də bu prosesdə tarazlaşmanın gözlənilməsini zəruriləşdirir. Bu cür fondlar sosial və istehsal xarakterli ola bilir. Topluma sosial xidmətlərin göstərilməsi (və çoxalması), infrastrukturda stimullaşdırma, aparıcı sahələrin əlavə vəsaitlə təmin olunması bu prosesdə funksional təsir örnəyi olaraq görünür. Dövlətin bütün gəlir və xərcləri dövlət büdcəsi əsasında müəyyənləşir və nizamlanır.

Dövlətin pul və büdcə siyasəti ilə bağlı dünya və Azərbaycan iqtisadi fikrinin nümayəndələrindən Ə.Ə. Ələkbərov [2], Z.T. Vəliyev [8], R.H. Muradov [7], M.P. Бабоев [9], T.B. Брайчева [10], E.H. Ведута [11], Д. Городецкий [12], B.B. Забородина [13] və başqalarının maraqlı mülahizələri vardır. Məsələn, M. Speranskiy (XIX əsrin əvvəlləri) "Maliyyə planı" araşdırmasında xüsusi bir tərzdə qeyd edir ki, dövlət xərclərinin ixtisarı zəruriləri saxlamaqla faydalıların bir qismini sonraya keçirmək, artıqları isə kənara qoymaq prinsipi ilə nizamlanır. Ümumiyyətlə, xərclərin təsnifatını M. Speranskiy beş istiqamətdə müəyyənləşdirir və ilk olaraq idarəetmə növünə görə xərclərə diqqət göstərir. İdarəetmə orqanlarına xərclərin ayrılması inzibati kateqoriyada müəyyənləşmiş prinsipə uyğun olaraq reallaşır.

İkincisi, zəruriliyin əsas götürülməsi prinsipi ilə müəyyənləşir. Burada daha çox lazım olan, nisbətən az lazım olan və ən az lazım olan əsasında xərclər müəyyənləşdirilir. Daha doğrusu xərclərin faydalılığı nəzərdə tutulur. Faydalı xərclər xalq təsərrüfatının inkişafını təmin edən və ona yardımçı olan xərclərdir. İqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsi dövlətin pul və büdcə siyasətinin ümumi vəziyyətinin nəzərə alınmasına əsaslanır.

Meyar olaraq müəyyənləşən üçüncü istiqamət, məkanına və yerinə görə olan xərclərdir. Ümumdövlət və yerli əhəmiyyətli xərclər bura daxildir. Onu da əlavə edək ki, ümumdövlət xərcləri dövlət büdcəsindən, yerli xərclər isə yerli büdcənin gəlirləri əsasında reallaşır.

Xərclərin təsnifatında dördüncü istiqamət xərclərin müddəti ilə bağlıdır. Adi və fövqəladə xərclərə bölünən bu proses onun reallaşması mənzərəsini də zəruriləşdirir. Fövqəladə vəziyyət üçün nəzərdə tutulan xərclər ehtiyat fondundan ödənilir.

Beşincisi, sabitlik məsələsidir və xərclərin ümumi həcminə görə səciyyələnir. Ümumiyyətlə, xərclər dəyişkən tiplidir. Bütünlükdə xərcləri zəruriliyinə, istiqamətinə və müddətinə görə nəzərdən keçirilməlidir. Azərbaycan Respublikası Maliyyə Nazirliyi 1993-cü ildə xərclərin indefikasiyasını aparmışdır. Funksional, iqtisadi və inzibati təşkilatlar üzrə aparılan bölgü pul və büdcə siyasətində qarşılıqlı əlaqənin bir meyar olaraq əsas ötürülməsi ilə

şərtlənir. Məlumdur ki, *"dövlətin iqtisadi vəzifələrinin həyata keçirilməsinin maddi əsasını dövlət büdcəsi təşkil edir. İqtisadi münasibətlərin mühüm tərkib hissəsi sayılan maliyyə münasibətləri sistemində dövlət maliyyəsində büdcə əhəmiyyətli yer tutur.*

*Məlumdur ki, dövlət bir sıra iqtisadi vəzifələri yerinə yetirir, onun iqtisadi, sosial, siyasi və s. sahələrdə çoxsaylı, çoxşaxəli işlərin yerinə yetirilməsindən ötrü maliyyə vəsaiti tələb olunur. Elə bu məqsədlə dövlət pul vəsaitləri fondunu yaratmaq məcburiyyətində qalır və əvvəl göstərdiyimiz sahələr üzrə lazımı işlərin aparılmağından ötrü pul vəsaitləri fondlarından istifadə etməli olur. Bu mənada dövlət büdcəsi dövlətin dayağı, möhkəm təminatı, müdafiəçisi və etibarlı söykənəcəyidir"* [5, s.521]. Ümumiyyətlə, toplanan pul iqtisadi problemlərin həllinə yönləndirilir. İqtisadiyyatın inkişafı, tərəqqisi maliyyə vəsaitlərinin düzgün paylanmasını zəruri edir. Maddi imkan olmadan cəmiyyət qarşısına qoyduğu problemi həll etmək iqtidarında deyildir, çox doğru olaraq iqtisadiyyatın iqtisadi cəhətdən tənzimlənməsinin ən mükəmməl mexanizmi dövlət büdcəsi hesab olunur və bu iri mərkəzləşdirilmiş pul fondu anlamında dərk olunur.

Dövlət büdcəsində bütün işlər qarşılıqlı əlaqə və asılılığa bağlıdır. İqtisadi münasibətlərin mühüm bir hissəsini əhatələyən maliyyə münasibətləri burada mühüm yer tutur. Bu münasibətlər hər şeydən əvvəl dövlət büdcəsindəki gəlirlər və xərclər arasındakı nisbət və paralellərlə reallaşır. Məlum olduğu kimi, dövlətlə müxtəlif müəssisələr, idarə və təşkilatlar, əhali və bütünlükdə cəmiyyət səviyyəsində olan nə varsa, hamısı büdcə münasibətlərinin nizamının əsas götürülməsini prinsipləşdirir. Dövlət büdcəsi daha geniş müstəvidə ümumi milli məhsulun və milli gəlirin bölgüsündə də rıçaq rolunu oynayır. Burada əlaqələr və bağlantıların da funksional rolu vardır və hətta ölkələr çərçivəsindən kənara çıxmalar, beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlıq və yeni münasibətlərin yaranması da bu prosesin dövlət büdcəsində gedişini diqqət önünə çəkir.

Tarix boyu siyasi üstqurumun ən mühüm örnəyi olan dövlət bir sıra vəzifələrin yerinə yetirilməsini məqsəd olaraq qarşıya qoymuşdur. İlk növbədə bu proseslərdə maddi imkanlılıq önəmli rol oynayır. Belə imkanlılıq isə dövlətin əlində toplanan pul vəsaitləri hesabına reallaşır və prosesin uğurlu axarına istiqamət verir. İqtisadiyyatın çoxtərəfliliyi həyati zərurətlərə, ehtiyacların həllinə bağlanır ki, bu da sosial sferada münasibətlər və qarşılıqlı əlaqələrin sferasını zəruri edir. *"İqtisadi münasibətlərin müəyyən tərəflərini əks etdirən maliyyə, onun necəliyi, əhatə dairəsi, vəziyyəti iqtisadiyyatın və ölkənin inkişaf səviyyəsindən asılıdır. Bu gün maliyyə, kredit və pul tədavülü kimi məsələlər keçid iqtisadiyyatı dövrünün ən vacib, aktual və əhəmiyyət kəsb edən problemlərindən biridir. Maliyyə olduqca gərəkli, zəruri və vacib iqtisadi alətdir, o, iqtisadi münasibətlərin mühüm tərkib hissəsidir. Maliyyə dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində fəal rol oynayır. Nəzərə almamaq olmaz ki, maliyyə, kredit və pul tədavülü ilk növbədə maddi istehsala əsaslanır və eyni zamanda istehsalın inkişafına birbaşa təsir göstərir. Axı, ölçülüb-biçilmiş, yaxşı götür-qoy edilmiş, düşünülmüş, sağlam və ağılla qurulmuş maliyyə-pul sistemi ölkədə əmək məhsuldarlığının, gəlirin, mənfəətin, rentabeliliyin artırılmasına təsir göstərir. Maliyyə özünəməxsus bir anlayış olub, ictimai həyatda pul*

*vəsaitlərinin hərəkəti ilə bağlı olan zəruri, iqtisadi proses, vasitə və alətdir"* [5, s.517]. Maddi istehsalın nizamını yaradan və ona istiqamət verən maliyyə-pul tədavülü bütün proses, ölkənin sosial, iqtisadi təminatı üçün funksional səciyyə daşıması ilə şərtlənir. Ölkənin iqtisadi siyasəti və həyata keçirdiyi tədbirlər planı bütün mahiyyəti ilə maliyyəyə dayanır. Ona görə də bu prosesin ağılla və düzgün qurulması, reallaşma mənzərəsi digər sahələrin də dinamik axarı üçün əsas olur. Pul vəsaitlərinin hərəkəti, təkrar istehsalın dinamikası və düşünülmüş rentabeliliyə bağlanması, istehsaldan sonrakı mərhələnin prosesləri bütünlüklə maliyyə münasibətlərinin uğurlu realizasiyasına dayanır

**Dövlətin büdcə təsnifatı**. Azərbaycan Respublikası dövlət büdcəsinin təsnifatı istiqamətlərin düzgünlüyü və müəyyənliyi baxımından mühüm faktura ilə səciyyələnir ki, bunlar araşdırmalarda bir neçə istiqamətlə diqqət önünə gəlir.

1. *"Azərbaycan Respublikası dövlət büdcəsi gəlirlərinin təsnifatı;*
2. *Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin funksional təsnifatı;*
3. *Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin təsnifatı;*
4. *Azərbaycan Respublikası dövlət büdcəsi daxili və xarici maliyyələşdirmə mənbələrinin təsnifatı;*
5. *Azərbaycan Respublikası dövlət büdcəsi daxili və xarici borcunun növləri üzrə maliyyələşdirmənin təsnifatı;*
6. *Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin təşkilatlar üzrə təsnifatı"* [6; 7].

Bunlar özlüyündə dövlətin pul və büdcə siyasətinin qarşılıqlı əlaqəsi əsasında reallaşan və işin düzgün qurulması sayəsində dinamikaya əsaslanan məsələdir. Dövlət büdcəsi gəlirlərinin təsnifatı və istiqamətlərin müəyyənləşməsi eləcə də xərclər səviyyəsində prosesin gedişini və real mənzərənin xarakterini diqqət önünə çəkir. Gəlir və xərclər müstəvisində vəziyyətin izlənməsi və nəticələrin ortaya qoyuluşu daxili və xarici maliyyələşmə mənbələrinin də mahiyyətinə həssaslığı diqqət önünə gətirir. Növlər üzrə maaliyyələşmə prosesinin gedişi, təşkilatlar üzrə vəziyyət və s. bir bütöv olaraq prosesin mahiyyətini aydınlaşdırır.

İctimai həyatın müəyyən sahələrinə müdaxilə etmək imkanları ilə müşahidə olunan proses çoxyönlü və çoxşaxəli olması ilə bütün səviyyələrdə pul vasitəsilə reallaşmalara yol açır. Çünki maliyyə münasibətləri pulun vasitəsilə tənzimlənir. Maliyyə münasibəti və iqtisadi inkişafın maliyyə təminatının formalaşması və müsbət tempi ölkənin inkişafının dinamik mənzərəsi üçün ən xarakterik haldır. Dövrlərin iqtisadi inkişafı bir istiqamətdə yeni inkişaf texnologiyasının iqtisadi sistemə tətbiqi və proqramlaşdırma mexanizmlərinin spesifik uğurluluğundan asılıdır. Eyni zamanda hazırlanan və tətbiq olunan proqram bütün spektrləri ilə dövlətin vəziyyətini səciyyələndirir. Sağlam iqtisadi siyasətin həyata keçirilməsi bunun üçün funksional məzmun daşıyır.

Ümumiyyətlə, maliyyə olduqca vacib, bütün aspektlərdə işlərin uğurluluğu üçün müstəsna olandı. İqtisadi fikrin görkəmli nümayəndələri bunu mühüm alət kimi xarakterizə edirlər. Dövlətin iqtisadi siyasəti onun vasitəsilə reallaşır. Maliyyə, kredit və pul tədavülü bütün

spektrləri ilə iqtisadiyyata bağlanmaqla əmək məhsuldarlığının, milli gəlirin, mənfəətin təminatçısı rolunu oynamışdır. İctimai həyatın müxtəlif sahələrində çalışanlar arasında gündəlik baş verən əlaqələr özlüyündə maliyyə siyasətinin düzgünlüyünə bağlanır. Bu əlaqələr, maliyyə münasibətləri və iqtisadi inkişafın maliyyə təminatı üçün əsas olur. İctimai fəaliyyətin müxtəlif sahələrinin hərəkətliliyi, işlək mexanizminin fəaliyyəti üçün maliyyə vasitə rolunu oynayır. Bütün bunlar maliyyənin üstqurum hadisəsi olaraq qavramını da şərtləndirir. Elmi-nəzəri fikrin görkəmli nümayəndələrinin mühüm bir hissəsi hətta siyasi üstqurum səviyyəsində təqdimə gəlib çıxırlar.

Maliyyə bütün sferalarda iqtisadi münasibətləri ifadə edir və iqtisadçılar məsələnin şərhinə daha çox bu aspektdən yanaşırlar. Daha doğrusu, iqtisadi özül kimi diqqət önünə gətirirlər və hər iki halda mahiyyət və maliyyənin funksional xarakteri öz mükəmməl funksiyası ilə təmsil olunur. Çünki maliyyə bu deyilənlərin hamısını əhatə etmək gücündədir. Maliyyənin yerinə yetirdiyi funksiyalar çoxşaxəliliyi və çoxqatlılığı ilə xarakterizə olunur. İstehsalın stimullaşdırılması, tənzimlənməsi və idarəolunması da burada bir tərəf kimi özünü göstərir. İqtisadi hadisələrin bütün təzahür formalarında maliyyə özünü göstərir.

Cəmiyyətin dinamikası bütün səviyyələrdə istehsalı diqqət önünə gətirir və onun realizasiyası, həyata keçirilməsi prosesi isə insanla faktlaşır. Bölgü məhsulun dəyərinə təsir baxımından da prosesin gedişini zəruriləşdirir. Bütün bunlar isə maliyyənin bölgü vasitəsilə şərtlənməsini faktlaşdırır. Təkrar istehsalın gedişatı maliyyə prosesinin sayəsində və həm də uğurlu nizamında reallaşır və işini başa vurmuş olur. Geniş mənada maliyyə iqtisadi münasibətlər sistemidir, çünki istehsalın gedişatında dəyər bölgüsündə mühüm olan kimi təmsil olunur. Münasibətlər sistemi silsiləsində təşkilatlar, idarələr, iqtisadiyyatın bütün sahələri, cəmiyyət üzvləri, regionlar və s. arasında əlaqələrin yaranması bu və ya digər dərəcədə maliyyə işinin funksional səciyyəsini şərtləndirir.

Cəmiyyətin dinamik inkişafında hər şey istehsaldan və istehsal isə onu reallaşdıran insandan başlayır. Toplumda dəyər bölgüsü bütün təfsilatı və məzmunu ilə ictimai məhsulun dəyərinə təsir göstərir və bütünlükdə prosesin ümumi gedişi nəticə etibarilə bölgüyə gətirib çıxarır. Bütün bunlar isə maliyyənin bölgü ilə şərtlənməsini faktlaşdırır. Beləliklə, maliyyə geniş təkrar istehsalın gedişinə bağlanır və dəyər bölgüsündə iştirak etməklə prosesin nizamını sərgiləyir. İctimai məhsul, milli gəlir, pul vəsaiti, yığım fondunun formalaşması və istifadəsi biri digəri üçün vəsilə ola biləcək prosesdir. Dövlətlə təşkilatlar, iqtisadiyyatın müxtəlif sahələri, müəssisə və idarələr, iqtisadi regionlar, cəmiyyət üzvləri və s. burada təmsil olunmaqla prosesin gedişinə istiqamət verir.

Təhlildə iqtisadi inkişafın təminatçısı funksiyasında maliyyə resurslarının da rolunu qeyd etmək lazımdır. Çünki iqtisadi prosesin ümumi axarını maliyyə resurslarsız təsəvvür etmək olmaz və bu mümkün deyildir. Maliyyə resursları dedikdə dövlətin, idarə və təşklilatların, eləcə də hüquqi şəxslərin əlində olan pul vəsaitləri başa düşülür.

**Nəticə.** Maliyyə münasibətləri, iqtisadi inkişafın maliyyə təminatı bütün sferalarda onun finksiyasını əsasa çevirir və bu isə bölüşdürülmə, nəzarət və operativliyin təmin olunması ilə

xarakterizə olunur. Bəzən bunun ümumi mənzərəsini təkrar istehsal, bölgü, normativ nəzarət və stimullaşdırma səviyyəsində də təhlilə gətirirlər. Məcmu ictimai məhsul, milli gəlirin bölgüsü iqtisadi inkişafın maliyyə təminatını xarakterizə edir. Nəzarət funksiyasında pul vəsaitləri fondları, onların yaranması və fəaliyyəti bir prinsip olaraq əsas götürülür. Əmələ gələn fondların və istifadəsi üzərindəki nəzarət prosesin gedişinin nəzarətə götürülməsi maliyyə siyasətinin düzgünlüyü üçün əsas olur.

Xalq təsərrüfatlarının müxtəlif ehtiyaclarının ödənməsi prosesinə sərf olunan bu resurslar həm də istiqamət rəngarəngliyi və spesifikası ilə səciyyələnir. Bütün bunlar isə özlüyündə qiymət dəyərinə gətirib çıxarır ki, bu da maliyyə üsulu ilə bölgünün əsasını müəyyənləşdirir. Bütün bunlar maliyyə münasibətlərini və iqtisadi inkişafın maliyyə təminatının formalaşması mexanizmlərini və spesifikasını əhatə edir.

## Ədəbiyyat

1. Alıyev X.Ş. (2017), Büdcə siyasətinin effektivliyinin ekonimik təhlili, fəlsəfə doktorluğu dissertasiyasının avtoreferatı. Bakı: İqtisadi İslahatlar Elmi-tədqiqat İnstitutu, 25.
2. Ələkbərov Ə.Ə. (2007), Sosial iqtisadi inkişafın maliyyə-büdcə tənzimlənməsi problemləri, iqtisadiyyat elmləri doktoru dissertasiyası. Bakı: AMEA İqtisad institutu, 343.
3. Əliyev R.İ. (2010), İqtisadi təhlükəsizliyin təmin olunmasında pul-kredit sisteminin rolu və onun təkmilləşdirilməsi, iqtisadiyyat üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı: AMEA, İqtisad İnstitutu, 156.
4. Əliyeva T.T. (2011), Dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə edilməsinin təkmilləşdirilməsi, iqtisadiyyat üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, 169.
5. İqtisadi nəzəriyyə (2001), Bakı: Çaşıoğlu, 692.
6. Qarayev İ. (2018), Dövlət büdcəsi. Vergi daxilolmalarının büdcə gəlirlərində rolu. Şamaxı, 3-25.
7. Muradov R.H. (2016), Büdcə prosesinin təkmilləşdirilməsinin nəzəri-metodoloji əsasları, iqtisadiyyat üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı: İdarəetmə Akademiyası, 160.
8. Vəliyev Z.T. (2006), Dövlət büdcəsi. Bakı: Ziya, 216.
9. Бабоев М.Р., Мамбеталиев Н.Т., Тютюрюков Н.К. (2004), Налоги и налогообложение в СНГ. Москва: Финансы и статистика, 424.
10. Брайчева Т.В. (2011), Государственные финансы. СПб: Питер, 288.
11. Ведута Е.Н. (1998), Государственные экономические стратегии. Москва, 327.
12. Городецкий Д. (2003), Концепция бюджетной сбалансированности. Москва, 168.
13. Забородина В.В. Финансы. Москва.: Изд-во Финансы и статистика, 396.
14. Караваева И.В. (1998), Приориетные направления налоговых реформ в рыночной экономике второй половины XX века. Москва, 182.